# TÜRKDİLLİ ÖLKƏLƏRİN DİASPOR TƏŞKİLATLARININ BİRGƏ FƏALİYYƏTİ: ZƏRURƏT, PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

Roman AĞAYEV*

**Xülasə:** Türkdilli dövlətlərin beynəlxalq arenada özünəməxsus rol oynaması və müasir beynəlxalq sisteminin əlahiddə bir elementinə çevrilməsi artıq faktdır. Lakin bu dövlətlər birliyinin inteqrativ potensialının ayrıca bir vahid kimi dünyanın siyasi-iqtisadi səhnəsində yer alması hər bir türkdilli dövlətin ayrı-ayrılıqda rolundan geri qalmaqdadır, yəni, pərakəndə şəkildə bu birliyə aid ölkələrin nüfuzu onların təşkilatlanmış formada ortalığa çıxan qurumunun nüfuzundan hələ daha güclüdür. Türkdilli dövlətlərin inteqrasiyası əslində qaçılmaz bir proses olduğundan onun zərurəti göz qabağındadır, lakin mövcud problemlər həmin inteqrasiya proseslərinin intensivləşməsinə və ümumilikdə perspektivlərinə kölgə salır. Bu prizmadan da həmin dövlətlərin diaspor təşkilatlarının fəaliyyəti birbaşa həm zərurətin, həm də ərsəyə gələn və perspektivləri uzaqlaşdıran problemlərin ən parlaq təzahürüdür.

**Joint Activity of Diaspor Organizations of Turkic-Speaking Countries: Need, Problems and Perspectives**

**Abstract:** It is already a fact that Turkic-speaking countries play a unique role in the international arena and become a separate element of the modern international system. However, the integration potential of this union of states as a separate unit in the political and economic scene of the world lags behind the individual role of each Turkic-speaking state, that is, the influence of the countries belonging to this union in detail is still stronger than the influence of their organization that appeared in the world in an organized form. Since the integration of Turkic-speaking countries is actually an inevitable process, its necessity is obvious, but the current problems overshadow the intensification of those integration processes and their prospects in general. From this perspective, the activity of the diaspora organizations of those states is the most vivid manifestation of both the necessity and the emerging problems that distance the prospects.

## Zərurət

Xalqın mənsub olduğu ölkədən kənarda yaşayan mühüm hissəsi diaspor kimi müəyyən olunsa da, bu termin konkretləşməyə məruz qalanda nisbətən şərti olduğu və bu və ya digər şəkildə siyasi konyunkturadan və sosial-iqtisadi parametlərdən asılı olur. Amma hər halda bu məqalə çərçivəsində "diaspor" sözünün istifadəsi bu və ya digər xalqın başqa ölkədəki nümayəndələrinin sadəcə toplumuna deyil, həmin toplumun strukturlaşmış, təşkilatlanmış formalarına – icmalara, təşkilatlara, qurumlara, birliklərə, cəmiyyətlərə və s. aid ediləcək.

Ümumiyyətlə, türkdilli ölkələrin diaspor həmrəyliyindən danışanda təəssüf hissi ilə də olsa qeyd etməliyik ki, bu istiqamətdə söylənilən arzu və təkliflərin rəngarəngliyi reallığı əks etdirmir. Təbii ki, təşəbbüslər və layihələr irəli sürülür, cuzi bir hissəsi reallaşdırılır da, lakin bu ümumi inteqrasiya potensialını əks etdirmədiyi ilə yanaşı, heç zərurətə də cavab verə bilmir. Bu müstəvidəki mövzuların aktiv və hərtərəfli müzakirə meydançası kimi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan ölkələrin Diaspor Rəhbərlərinin I forumlarını misal gətirmək olar. Məsələn, TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun Bakıda 2013-cü ildə keçirilmiş Forumda etirafına görə, "Biz təəssüf edirik ki, bu gün diasporlarla çox az işləyirik. Əməkdaşlığımızın bəzi örnəkləri var. Məsələn, biz dünyanın müxtləif ölkələrində Novruz bayramını birgə qeyd edirik. Amma sadəcə seyrci olaraq deyil, onların fəal olaraq iştirakçı olması lazımdır. TÜRKSOY da daxil olmaqla onların tanıtım məsələlərində daha effktiv rol oynamaları lazımdır". Eyni zamanda TÜRKSOY-un Baş katibi hesab edir ki, Bakıda keçirilən forum bu yöndə öz töhfəsini mütləq verəcək: "Mən deyərdim ki, artıq verir. Bu iki gün ərzində burada bir çox dostlarımla danışdım. Onlar da qeyd edirlər ki, türk dövlətlərinin diasporları birgə hərəkət etməli, bir-birlərinə dəstək olmalı, zəngin mədəniyyətimizi dünyaya tanıtmalıyıq". (1. https://az.trend.az/azerbaijan/politics/2163728.html - TÜRKSOY-un Baş

* Humanitar Fənlər Və Regionşünaslıq Kafedrasının Müəllimi, Bakı Avrasiya Universiteti.

katibi: Türk dövlətlərinin diaspor təşkilatları birgə hərəkət etməlidirlər / TREND news agency, 21.06.2013)

2022-ci ildə Türk dünyasının mədəniyyət paytaxtı olan Bursa şəhərində iki gün davam edən Türk Dövlətləri Təşkilatının İkinci Diaspor Forumu da Bakıdakı müzakirə və qərarların məntiqli davamı olub. İki gün davam edən tədbirdə rəsmi açılış mərasimi, panellər, ikitərəfli görüşlər və təcrübə mübadiləsi proqramı təşkil olunub. Rəsmi açılışda Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin rəisi Abdullah Eren, Bursa Böyükşəhər bələdiyyəsinin sədri Alinur Aktaş, Bursa valisi Yakup Canpolat, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev və Türk Dövlətləri Təşkilatı (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım çıxış ediblər. "TDT üzv ölkələrində diasporların müasir vəziyyəti və gələcək perspektivi" mövzulu paneldə Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov çıxış edib. Paneldə Türkiyə ilə bərabər Qırğızıstan, Qazaxıstan və Özbəkistanı təmsil edən rəsmi heyətlərin rəhbərləri mövzu ətrafında fikir və mülahizələrini bölüşüblər. Forumun birinci günü "Diasporda QHT-lərin bacarıqlarının artırılması və çətinliklər", "TDT-yə üzv ölkələrin diasporlarının tarixi prosesi" mövzularında panellər keçirilib. Hər iki paneldə Azərbaycanda diasporçuluq tarixi və bu strukturun inkişaf istiqamətləri barədə iştirakçılara ətraflı məlumat verilib. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda diasporçuluq strukturunun formalaşmasındakı səyləri, qəbul olunan qərarlar, bu siyasətin hazırda da uğurla davam etdirilməsinin real nəticələrindən danışılıb.Forum təcrübə mübadiləsi proqramı ilə işini davam etdirib. Tədbirin bu hissəsində isə qarşılıqlı təcrübə mübadiləsi, diaspor qurumlarına maliyyə köçürülməsi prosedurаları, türk dili və türk mədəniyyəti üzrə xaricə təyin olunmuş müəllimlər və bir çox məsələlər ətrafında müzakirələr aparılıb. (2. https://azpolitika.info/?p=668945 - Türk Dövlətləri Təşkilatının İkinci Diaspor Forumu başa çatıb / "Azpolitika.info" internet portalı, 29.03.2022)

2022-ci il dekabrın sonlarında mövzuya aid maraq cəlb edən daha bir tədbir baş tutub. Türk Dövlətləri Təşkilatının diaspor məsələlərinə məsul dövlət qurumlarının rəhbərləri 27 ildən artıq Ermənistanın işğalçılıq əsarətində olan və 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsi – Vətən müharibəsi nəticəsində azad edilən və azad olunması ilə Azərbaycanın zəfər rəmzinə çevrilmiş Şuşa şəhərinə səfəri təşkil olunub. Nümayəndə heyəti şəhərin tarixi məkanlarını ziyarət edib, işğal dövründə ermənilərin törətdikləri dağıntılara baxıb, şəhərdə aparılan tikinti-yenidənqurma işləri ilə tanış olub. Daha sonra diaspor məsələlərinə məsul dövlət qurumları rəhbərlərinin forumu keçirilib. Nümayəndə heyətinə Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Yerzhan Mukaş, Macarıstanın Milli Siyasət üzrə Dövlət katibi Arpad Yanos Potapi, Qırğız Prezidenti yanında Dövlət dili və Dil Siyasəti üzrə Milli Komissiyanın sədri Kanıbek Osmonaliev, Qazaxıstan Respublikasının "Otandastar" Fondunun beynəlxalq şöbəsinin müdiri Kalıbek Koblandin, və Şimali Kipr Türk Respublikasının Xarici İşlər Nazirliyi Katibliyinin rəisi Kemal Köprülü daxil olublar. Göründüyü kimi, bu kimi tədbirlər həm gündəmi, həm müzakirə olunan məsələlərin spektri, həm də təmsil olunan iştirakçılar baxımından olduqca zəruri və önəmlidir. (3. https://yenigundem.az/turk-dovletleri-teskilatinin-diaspor-meselelerine-mesul-dovlet-qurumlarinin-rehberleri-susaya-gedib/ - Türk Dövlətləri Təşkilatının diaspor məsələlərinə məsul dövlət qurumlarının rəhbərləri Şuşaya gedib / "Yeni gündəm" internet qəzeti, 21.12.2022)

türk xalqları diaspor təşkilatlarının fəaliyyətinin birləşdirilməsinin, əlaqələndirilməsinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyi nəinki müvafiq dövlət xadimləri, rəsmi dairələr, hətta geniş mənada ictimai xadimlər, ekspert və mütəxəssislər tərəfindən də vurğulanır. Məsələn, Türkiyənin Ege universitetinin professoru, beynəlxalq məsələlər üzrə ekspert Mehmet Yücə Azərbaycan informasiya portallarının birinə müsahibəsində güclü diasporun formalaşmasının şərtləri və onun tarixi vətənlə əlaqələrinin necə qurulması ilə bağlı fikirlərini bölüşüb. Professorun fikrincə, hansı ölkədə nə qədər azərbaycanlının olduğu,

onların hansı sahələrdə çalışdıqları, hansı sahələrdə nüfuzlu olduqları müəyyənləşdirilməlidir, bu yöndə bir strateji planın hazırlanması gərəkdir, bu sahə ilə məşğul olan məmurlar diaspor mövzusunda kifayət qədər məlumatlandırılmalı və onlara diasporla əməkdaşlıq qurmaq sahəsində zəruri təlimatlar verilməlidir. "Türkiyə başda olmaqla türk dövlətlərinin diasporları ilə əlaqələndirmə mexanizmini inkişaf etdirmək lazımdır. "Türk dünyası-2040 vizionu" proqramında bu məsələdə son dərəcə xoş bir iradə ortaya qoyulub. Xaricdəki unuiversitetlərdə çalışan alimlərdən, orada təhsil alan tələbələrdən də yararlanmaq lazımdır. Onları fəallaşdıraraq güclü bir diaspor üçün infrastruktur yaratmaq olar. Sahibkar diasporaya çox ehtiyac duyulur. Özəlliklə də Azərbaycana sərmayə cəlb etmək üçün azərbaycanlı, türk iş adamları, Azərbaycana dost ölkələrin iş adamları ilə - onlar İsraildə və Pakistanda da ola bilərlər,- əməkdaşlıq dərinləşdirilməlidir. Bu mənbələrdən neft sektorundan kənar sahələrə də xarici sərmayələrin gəlməsi, azərbaycanlı iş adamları ilə xarici iş adamları arasında iş birliyi qurmaqla iqtisadiyyatın inkişafı və gücləndirilməsi yönündə diaspor ciddi rol oynaya bilər. İnanıram ki, Azərbaycan diasporu bunu reallaşdırmağa qadirdir", - deyə Mehmet Yücə bildirib. (4. https://azvision.az/news/327064/--turk-xalqlarinin-diasporlari-fealiyyetlerini-birlesdirmelidir—-mehmet-yuce-musahibe+video---.html - "Türk xalqlarının diasporları fəaliyyətlərini birləşdirməlidir" – Mehmet Yücə / "AzVision.az" internet saytı, 11.05.2023)

Professorun fikrini davam etdirərək qeyd etmək yerinə düşər ki, Azərbaycan və Türkiyə diasporlarının əməkdaşlığı genişləndirməsi və fəaliyyətlərinin əlaqələndirilməsi məsələsi daim müxtəlif səviyyələrdə müzakirə obyektidir. Buna misal olaraq Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovla 2023-cü ilin sentyabrında görüşünu, ikitərəfli əməkdaşlıq, üçüncü ölkələrdə diaspor təşkilatları arasında əməkdaşlıq və güc birliyi məsələlərinin müzakirəsini gətirmək olar. (5. https://1news.az/az/news/20230912040118817-Azerbaycan-ve-Turkiye-diasporlarinin-emekdashligi-genishlendirmesi-meselesi-muzakire-olunub - Azərbaycan və Türkiyə diasporlarının əməkdaşlığı genişləndirməsi məsələsi müzakirə olunub / "1news.az" xəbər saytı, 12.09.2023)

Əslində, diaspor fəaliyyətinin əlaqələndirilməsi məsələsi, təbii ki, tək Azərbaycan və Türkiyənin əməkdaşlığını nəzərdə tutmamalıdır, halbuki reallıqda hələki yaınız bu cütlüyün aktivliyindən danışmaq olar. Amma bu həmin formatın arzuolunan miqyası deyil. Burada böyük maraq doğuran "5 Dövlət 1 Diaspor" formuludur ki, son zamanlar onun aktuallığı get-gedə artmaqdadır. Məsələn, ötən ilin sentyabrında İstanbulda Türk Dövlətləri Təşkilatının keçirdiyi Dünya Türk Biznes Şurasının (DTİK) 10-cu Qurultayının açılış mərasimi çərçivəsində "Türk Dövlətləri Təşkilatı ilə 5 Dövlət 1 Diaspor" sessiyası təşkil edilib. Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin rəsmilərinin, biznes dairələri və beynəlxalq təşkilatların nümayəndələrinin qatıldığı tədbirdə iqtisadi əməkdaşlıq, təşkilata üzv ölkələrin diaspor təşkilatları arasında tərəfdaşlığın genişləndirilməsi, birgə investisiya imkanları barədə müzakirə aparılıb. (6. https://economy.gov.az/az/post/1594/turk-dovletleri-teskilati-ile-5-dovlet-1-diaspor-sessiyasi-kecirilib - "Türk Dövlətləri Təşkilatı ilə 5 Dövlət 1 Diaspor" sessiyası keçirilib / Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin internet saytı, 15.09.2023)

Onu da qeyd etmək lazımdır ki, diaspor mövzusu təkcə ictimai-siyasi müstəvidə müzakirə edilmir. Gördüyümüz kimi, tədbirlər sırasında biznes forumlar da var. Buraya geniş mənada humanitar sferanı, elmi-mədəni əlaqələri və s. qatmaq olar. Gənclər siyasəti də əhatəli baxışda mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir ki, xüsusi olaraq Türk dövlətlərinin diaspor gənclərinin birgə fəaliyyət perspektivlərinə vaxtaşırı diqqət cəlb edilir. Məsələn, Diasporla İş üzrə Dövlət Komitəsində keçirilən Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumunun növbəti paneli "Türk dövlətlərinin diaspor gənclərinin birgə fəaliyyət perspektivləri" mövzusuna həsr edilib.Türk Dövlətləri Əməkdaşlıq Şurasının layihə direktoru Ali Çivilerin moderatorluğu ilə aparılan panel iclasında Diasporla İş üzrə Dövlət Komitəsi

sədrinin müşaviri Cahid Kazımov və Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktorunun müavini Şahin Camalov çıxış ediblər. İştirakçılara Komitənin və Fondun fəaliyyət istiqamətləri, həyata keçirilən layihələri barədə ətraflı məlumat verilib və diaspor gənclərinin birgə fəaliyyət perspektivlərinə diqqət cəlb edilib. Sonra Türkiyə, Qazaxıstan, Qırğız Respublikası, Özbəkistan və Şimali Kipr Türk Respublikasını təmsil edən forum iştirakçıları müxtəlif təqdimatlarla çıxış ediblər. (7. https://diaspor.gov.az/az/news-detail/turk-dovletlerinin-diaspor-genclerinin-birge-fealiyyet-perspektivlerine-diqqet-celb-edilib-3579 - Türk dövlətlərinin diaspor gənclərinin birgə fəaliyyət perspektivlərinə diqqət cəlb edilib / Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin internet saytı, 27.09.2023)

Ayrı-ayrı məsələlərin müzakirəsinə və fəaliyyət planlarına həsr olunan iclas və sessiyalardan başqa Türk dövlətləri diaspor qurumlarının ümumstrateji inkişaf məsələləri də müvafiq təmaslar çərçivəsində fəal diaskussiyalara məruz qalır. Bunun təsdiqi olaraq 22 noyabr 2023-cü il tarixində Bişkek şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin 5-ci iclası keçirilib. Toplantının gündəliyinə üzv dövlətlərin diaspor qurumları və türk diasporları arasında koordinasiya və əməkdaşlığın gücləndirilməsi məsələləri daxil edilib. Tədbirdə çıxış edən Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov 2024-cü il TDT-nin yaranmasının 15 illiyi münasibətilə Naxçıvan şəhərində üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin görüşünün keçirilməsini, eləcə də TDT diaspor alimlərinin ümumi məlumat bazasının yaradılmasını təklif edib. “Türk diasporunun 2022–2026-cı illər üzrə Birgə Fəaliyyət Strategiyası” müzakirə olunub və Azərbaycan nümayəndə heyətinin təklifləri müsbət qarşılanıb. 2024-cü ildə Naxçıvan şəhərində təşkil olunacaq TDT-nin 3-cü Diaspor İnstitusional Təcrübə Mübadiləsi Proqramı çərçivəsində TDT-nin yaranmasının 15 illiyi münasibətilə üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin görüşünün keçirilməsi qərara alınıb. Qeyd edək ki, TDT (keçmiş adı – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası) 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində imzalanan Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş beynəlxalq təşkilatdır. (8. https://olke.az/siyaset) - TDT-yə üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumları və təşkilatlarının rəhbərləri Bişkekdə bir araya gəlib / "Ölkə.Az" xəbər agentliyi, 23.11.2023)

**Problemlər**

Əslində, türk diasporlarının mütəşəkkil qaydada ictimai-siyasi müstəvidə birgə fəaliyyət göstərməsi məsələsi çox aktualdır, müxtəlif səviyyələrdə - həm rəsmi dairələrdə, həm də ekspertlər arasında müzakirə olunandır. Lakin təşəbbüs və qərarların sözdən təcrübəyə, kpnkret işlərə keçməsi mərhələsində bir sıra problemlər yaranır ki, onlar da bu məsələni praktiki sferadan çox, nəzəri kontekstdə saxlayır. Problemlər nədədir, hansı amillərlə bağlıdır?

**1) Milli Maraqlar və Daxili Siyasi Konyunktura**

Təbii ki, Türkdilli dövlətlərin birgə ümumi maraqları diaspor sahəsində əlaqəli fəaliyyətin həyata keçirilməsidir. Lakin burada hər bir dövlətin bu və ya digər geosiyasi güc mərkəzləri ilə münasibətləri və bundan irəli gələn məsələlər ön plana çıxır. Burada həmçinin bu və ya digər ölkədə mövcud olan siyasi rejimin xarakteri də müstəsna rol oynayır. Məsələn, ABŞ-da, Kanadada, Avropanın demokratik ənənələr baxımından inkişaf etmiş ölkələrində ictimai-siyasi azadlıqların deklarativ deyil, əməli və əyani olması türk diaspor qurumlarının fəaliyyətində də əks olunur, onların azad toplaşma və söz azadlığından bəhrələndiyini ortalığa qoymuş olur. Lakin Rusiya, Çin, İran və bu kimi repressiv-diktatura rejimləri şəraitində azad şəkildə fəaliyyətdən, əlbəttə ki, söz ola bilməz. Bu ölkələrdəki türk diaspor qurumları öz milli-etnik maraqlarından keçərək bu və ya digər hakim rejimin onlara diktə etdiyi siyasi sifarişi yerinə yetirmək məcburiyyətində qalırlar. Başqa sözlə, total nəzarət və təzyiq altında

fəaliyyət göstərən diaspor təşkilatının nizamnamədə bəyan etdiyi məqsəd və vəzifələri, demək olar ki, deklarativ xarakter daşıyır və yalnız hakim xəttlə üst-üstə düşəndə reallaşdırılır.

Yuxarıda qeyd olunan xüsusiyyətlər 20 il yaşadığım və aktiv fəaliyyət göstərdiyim Rusiyadakı türk diasporları sahəsinin ən real təsviridir. Ümumilikdə, Keşmiş SSRİ dövründə dəbdəbəli "xalqlar dostluğu" siyasəti aktiv həyata kjeçirilirdi, lakin hələ o vaxtlar rusların titul millət kimi qələmə verilməsi və qeyri-rus millətlərinə, xüsusən də türk millətlərinə qarşı mənfi münasibəti ara-sıra baş verir və az sayda olmurdu. Bunun təsdiqi olaraq o dövrdə "pantürkizm" ittihamı ilə türk köklərindən danışanlara qarşı cinayət işləri qaldırılır, total manqurtlaşmaya bpyun əyməyib öz milli-mədəni dəyərlərini qoruyub-saxlamağa çalışanlar repressiyalara məruz qalırdı. Buna misal kimi Azərbaycanın ikinci prezidenti Əbülfəz Elçibəyə qarşı qaldırılmış saxta cinayət işini misal gətirmək olar. Xatırladaq ki, Azərbaycanın bir çox dəyərli ziyalılarını məhv etmiş və milli köklərimizə qarşı düşmənçilik siyasəti aparan Dövlət Təhlükəsizlik Komitəsi Əbülfəz Elçibəyi tələbələr arasında millətçi və antisovet təbliğatı aparmaq adı ilə həbs edir və 17 iyul 1976-cı ilədək siyasi dustaq olaraq azadlıqdan məhrum edir. (9. https://az.wikipedia.org/wiki/Əbülfəz_Elçibəy#Həyatı - Əbülfəz Elçibəy / Vikipediya, azad ensiklopediya)

Müasir Rusiyada prinsip etibarı ilə heç bir şey dəyişməyib, daha da kəskinləşib. Mütəfəkkir Lev Qumilyovun Rusiyanın tarixi və müasirliyində "türkçülük amili"nin əhəmiyyəini bölüşən alimləri bir əlin barmaqları ilə saymaq mümkündür ki, bu da həmin ideyaların nəinki dar çərçivədə qalmasına, hətta geniş ictimai dəstək qazanmaq şansının heç olmamasına dəlalət edir. Sovetlərin "xalqlar dostluğu" siyasətini "millətlərarası sülh" şüarına yalnız kağızda çevirən Rusiya indi də türkçülüyü, türkdilli dövlətlərin inteqrasiyasını əksəriyyətilə özünə qarşı təhlükə sayır. Özündə bir çox türk xalqlarının yaşadığını nəzərə alan Rusiyanın diktatura rejimi bunun əsasında separatizmdən ciddi şəkildə ehtiyatlanır, ona görə də türkdilli xalqların nümayəndələrinə bacardığı qədər təzyiq edir, onların milli-mədəni hüquqlarını məhdudlaşdırır, fəaliyyətlərinin tam qarşısının alınması məqsədilə saxta ittihamlarla cinayət işləri qaldırır. Eyni iyrənc vəziyyət Rusiya rejiminin xüsusi dostları siyahısında olan İran və Çindədir. İranda antihumanist rejimin qəddarlıqlarına azərbaycanlılar qalırsa, Çində vəhşi kommunist hakimiyyətinin əsirliyində elə öz vətəndaşları olan uyğurlardır. Misallardan da göründüyü kimi, insana nifrət əsasında qurulan dövlət ideologiyasının mahiyyəti, alətləri və istiqamətləri eynidir və faktiki olaraq bu və ya dogər şəkildə türkdilli xalqlara qarşı həyata keçirilməkdədir.

Siyasi konyunktura və ondan asılılıq isə bu kontekstdə ona görə dilə gətirilir ki, bütün bu sadalanan və sadalanmayan çoxsaylı "antitürk" tendensiyalarına və açıq-aşkar törədilən haqsızlıqlara baxmayaraq bəzi türkdilli dövlətlərin liderləri müəyyən qısamüddətli və ya ortamüddətli perspektivlər naminə gözlərini yumurlar. Bəzən həmin perspektivlər heç o dərəcədə də aydın deyil, lakin onlar gerçəkləşsin deyə, türkdilli ölkələr sammitlərində qardaş birliyi jaqqında dedikləri operativ şəkildə unudulur, qorxularının və ya düşünülməmiş addımlarının qurbanı olur. Məsələn, Mərkəzi Asiyanın türk cumhuriyyətinin birinin liderinin Ermənistana rəsmi səfəri çərçivəsində qondarma "erməni soyqırımı" abidəsini ziyarət etməsi və əklil qoyması, eləcə də Çinlə cazibədar iqtisadi layihənin həyata keçirilməsi naminə uyğurların milli və dini zəmində başıarəna gətirilənlərin görməməzliyə vurulması, İranla dialoqun pozulmaması xatirinə oradakı milli fəalların işğəncə və təzyiqlərə məruz qalmasına göz yumulması həmin sıradan olan faktlardandır ki, bütün bunlar həmin liderlərin türkçülük əsasında bir yerə toplanıb inteqrasiya məsələlərini müzakirə etməsi o qədər də inandırıcı görünmür.

Effektivlik nöqteyi-nəzərindən məsələyə yanaşsaq qeyd etmək yerinə düşər ki, türk diaspor təşkilatlarının mədəni müstəvidə inteqrasiyasıdaha uğurludur. Söhbət hansısa vahid siyasi mövqedən gedəndə burada əlaqələndirmədən çox pərakəndəlik müşahidə olunmaqdadır. Ciddi siyasi məsələ, münaqişəli problem ortalığa çıxdıqda və türkdilli ölkələrin

diaspor təşkilatlarının mütəşəkkil qaydada razılaşdırılmış mövqedən çıxış etməsi lazım olduqda arzu olunan vahidliyi əldə etmək olmur, maksimum qəbul edilən bəyanatlar sırf neytral ifadələrlə seçilir. Belə bir təcrübə də mövcuddur ki, təşkilatlar arasında pərakəndəliyi dəstəkləmək üçün eyni milli-etnik qrupu təmsil edən bir yox, bir neçə təşkilatlara rəsmi qeydiyyatdan keçmək imkanı yaradılır ki, sonradan onlar arasında liderlik, daha böyük nüfuz, maliyyə mənbələrinə çıxış və bu kimi vacib məsələlərdə mübarizə yaransın, qarşılıqlı etimad atmosferi pozulsun, ümumi məqsədlərə qulluq etmək mümkün olmasın. Təbii ki, belə mübarizə hər bir təşkilatı zəiflədir ki, bu da nəticədə hakimiyyət orqanları tərəfindən onların fəaliyyətinə total nəzarəti çox asan və rahat edir.

**2) İqtisadi Amil**

Bu müstəvidə diaspor təşkilatlarının maliyyələşdirilməsi məsələsi ön plana çıxır. ayrı-ayrı ölkələrin təcrübələrində diasporların ictimai və milli-mədəni fəaliyyətlərinin maliyyələşdirilməsi istiqamətində özünəməxsus dəasti-xətti vardır. Bu isə nəticədə həmin təşkilatların fəaliyyətində birbaşa əks olunur. Təəssüf ki, bir çox hallarda rəsmi qeydiyyatdan keçmiş təşkilatların ümumi sayından yalnız cuzi bir hissəsi, əksər hallarda isə biri-ikisi özünün aktivliyi ilə seçilir, qalanları isə formal şəkildə mövcuddur. Etiraf etmək lazımdır ki, ictimai fəaliyyətin klassik anlamı çərçivəsində demokratik dəyərlərin hərtərəfli pozulduğu şəraitdə yaşayan ölkələrdə təşkilatın maliyyə imkanlarını ənənəvi yollarla – üzvlük haqları, ianələr və s. – təmin etmək mümkün olmur. Əksər hallarda belə qurumlar iqtisadi cəhətdən özünü daha davamlı hiss edən iş adamı üzərində cəmləşir, onun ətrafında və onun imkanları hesabına əmələ gətirilir. Diaspor fəaliyyəti kommersiya layihəsi olmadığından da bir sıra böyük tədbir və aksiyalardan sonra tez bir zamanda belə təşkilatlar çökür, çünki bir nəfərin maliyyə imkanları tükənir. Belə vəziyyətdə isə nəinki uzunmüddətli, heç orta perspektivdə də uğurlu ictimai fəaliyyətdən söhbət gedə bilməz.

**3) İkitərəfli Münasibətlərin Təsiri**

Əslində, diaspor təşkilatları iki ölkə arasında bir körpü rolunu oynamalıdır, əlaqələrin bütün istiqamətlərinin inkişafına təkan verməlidir, ictimai diplomatiyanın köməkçi potensialından istifadə edərək münasibətlərin ümumi dinamikasına müsbət təsir göstərməlidir. Sadalananlarda heç bir mənfi cəhət ilk baxışdan görünməsə də, əslində bu vəziyyət istənilən diaspor təşkilatını ikitərəfli münasibətlərin xarakteri və intensivliyindən asılılıqda qoyur. Ikitərəfli münasibətlər hər hansı bir anlaşılmazlıq və ya yaranmış ciddi məsələ səbəbindən staqnasiyaya uğrayanda və ya kəskinləşməyə doğru inkişaf edəndə bu dərhal illər boyu fəallığı və zəhməti ilə seçilən diaspor qurumunun işini hətta iflic duruma gətirə bilər. Müasir dpvrdə Rusiya-Türkiyə, Rusiya-Azərbaycan münasibətlərində müşahidə olunan hadisələr və onlardan asılı olan tamamilə biri-birindən fərqli tendensiyalar dediklərimizin sübutudur. Qeyri-demokratik rejimlər şəraitində belə problemlərlə rastlaşmış təşkilatların işi minimuma endirilir, dayandırılır, ölkənin təbliğat maşınının onlara qarşı qarayaxma kampaniyası aparmaq, milli ədavət və qarşıdurma abu-havası yaratmaq əmri verilir ki, bu da bir qədər əvvəl alşıqlanıb mükafatlandırılan milli azlıq nümayəndələrini az qala düşmən obrazı səviyyəsinə düşürür, millətin və onun ayrı-ayrı görkəmli nümayəndələrinin imicinə məqsədyönlü şəkildə hakimiyyət tərəfindən ziyan vurulur.

**Perspektivlər**

Perspektivlər barəsində danışarkən müxtəlif fikirlərin icmalını vermək yerinə düşən kimi görünür, çünki bu nəticədə ümumi mənzərə yaranır. Zirvə toplantılarında ictimai ekspert səviyyəsində, konfrans və forumlarda mövzumuzun fəal müzakirə edilməsi, müxtəlif layihələrin işlənib hazırlanması və onların tətbiqinə yönələn cəhtlər və təşəbbüslər türkdilli diaspor təşkilatlarının birgə fəaliyyəti məsələlərinin perspektivliyini aktual edir, zərrə qədər də şübhə altına almır. Bu doğurdan da belədir, çünki türk dövlətlərinin ümumiyyətlə

inteqrasiya potensialından danışanda burada diaspor amilini mötərizədən kənara çıxarmaq düzgün deyil. Dövlət başçılarının müvafiq siyasəti, səsləndirdikləri bəyanatlar, həyata keçirdikləri konkret addımlar "yuxarıdan" sifarişin olduğundan xəbər verir ki, bunu da ölkələrdəki ictimaiyyətə bir siqnal kimi də dəyərləndirmək mümkündür. "Aşağıdan" da müəyyən hərəkətverici təşəbbüslər, əsasən humanitar sahədə uğurlu tədbirlər həmin sifarişin ünvanına çatmasından, cavabsız qalmamasından və hətta bir impuls rolunu oynamasından xəbər verir ki, qarşılıqlı tendensiyalar müzakirəsini apardığımız məsələnin perspektivliyinə mühüm bir işarədir. Türkdilli dövlətlərin xarici siyasət konsepsiyasında türk ölkələri ilə münasibətlərin inkişafı prioritet məsələlərdən sayılır. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev Türk dünyasını "ailəmiz" adlandıraraq onlarla münasibətlərin inkişafını zəruri və yüksək əhəmiyyət kəsb edən adlandırıb. (10. https://apa.az/resmi-xeber/prezident-ilham-eliyev-turk-dunyasi-bizim-ailemizdir-833796 - Prezident İlham Əliyev: Türk dünyası bizim ailəmizdir / "APA" informasiya agentliyi, 05.04.2024). Başqa dövlət başçılarının da bu məsələyə yanaşması oxşar xarakter daşıyır ki, bu fakt özü-özlüyündə bir daha türkdilli ölkələr arasındakı hərtərəfli inteqrasiyanı son dərəcə aktuallaşdırır.

Digər düşərgənin tərəfdarları hesab edirlər ki, əgər diaspor təşkilatlarının fəaliyyəti bu və ya digər ölkədə birbaşa həmin ölkə ilə tarixi Vətənin ikitərəfli münasibətlərinin hansı məcrada inkişaf etməsindən asılıdırsa, o zaman əsas diqqəti və bundan irəli gələn siyasi-iqtisadi və ictimai-humanitar potensialı bu əlaqələrin birbaşa inkişafına yönəltmək lazımdır, çünki vəziyyətdən aydın olduğu kimi, diaspor təşkilatı bu kontekstdə ən yaxşı halda ikinci dərəcəli amildir.

Hər iki tərəfin arqumentlərinin kifayət qədər əsaslı olduğunu saysaq onu demək olar ki, istənilən halda türk diaspor təşkilatları fəaliyyətlərini əlaqələndirməli, ümumi məqsədləri əhəmiyyətli hesab edirlərsə belə olan halda bəyanatlardan çox əməli müvafiq tədbirlər görməli, potensialdan irəli gələn böyük perspektivlərə irəliləməlidirlər. Lakin bütün bunlara müvəffəq olmaq, qısa bir zaman kəsiyində nəzərəçarpacaq nailiyyətlərə imza atmaq yalnız və yalnız yuxarıda göstərilən və kifayət qədər ciddi xarakter daşıyan problemlərin peşəkarcasına həllinin müşayiəti ilə mümkündür. Belə işin effektivliyi sözügedən inteqrasiyanın keyfiyyətinə zəmanət verən ən mühüm amilidir.

## İSTİNADLAR

1.https://az.trend.az/azerbaijan/politics/2163728.html - TÜRKSOY-un Baş katibi: Türk dövlətlərinin diaspor təşkilatları birgə hərəkət etməlidirlər / TREND news agency, 21.06.2013

2.https://azpolitika.info/?p=668945 - Türk Dövlətləri Təşkilatının İkinci Diaspor Forumu başa çatıb / "Azpolitika.info" internet portalı, 29.03.2022

3.https://yenigundem.az/turk-dovletleri-teskilatinin-diaspor-meselelerine-mesul-dovlet-qurumlarinin-rehberleri-susaya-gedib/ - Türk Dövlətləri Təşkilatının diaspor məsələlərinə məsul dövlət qurumlarının rəhbərləri Şuşaya gedib / "Yeni gündəm" internet qəzeti, 21.12.2022

4.https://azvision.az/news/327064/--turk-xalqlarinin-diasporlari-fealiyyetlerini-birlesdirmelidir—--mehmet-yuce-musahibe+video---.html - "Türk xalqlarının diasporları fəaliyyətlərini birləşdirməlidir" – Mehmet Yücə / "AzVision.az" internet saytı, 11.05.2023

5.https://1news.az/az/news/20230912040118817-Azerbaycan-ve-Turkiye-diasporlarinin-emekdashligi-genishlendirmesi-meselesi-muzakire-olunub - Azərbaycan və Türkiyə diasporlarının əməkdaşlığı genişləndirməsi məsələsi müzakirə olunub / "1news.az" xəbər saytı, 12.09.2023

6.https://economy.gov.az/az/post/1594/turk-dovletleri-teskilati-ile-5-dovlet-1-diaspor-sessiyasi-kecirilib - "Türk Dövlətləri Təşkilatı ilə 5 Dövlət 1 Diaspor" sessiyası

keçirilib / Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin internet saytı, 15.09.2023
7. https://diaspor.gov.az/az/news-detail/turk-dovletlerinin-diaspor-genclerinin-birge-fealiyyet-perspektivlerine-diqqet-celb-edilib-3579 - Türk dövlətlərinin diaspor gənclərinin birgə fəaliyyət perspektivlərinə diqqət cəlb edilib / Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin internet saytı, 27.09.2023
8.https://olke.az/siyaset/353601/tdt-ye-uzv-dvletlerin-diaspor-meselelerine-mesul-dvlet-qurumlari-ve-teskilatlarinin-rehberleri-biskekde-bir-araya-gelib/ - TDT-yə üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumları və təşkilatlarının rəhbərləri Bişkekdə bir araya gəlib / "Ölkə.Az" xəbər agentliyi, 23.11.2023
9. https://az.wikipedia.org/wiki/Əbülfəz_Elçibəy#Həyatı - Əbülfəz Elçibəy / Vikipediya, azad ensiklopediya
10. https://apa.az/resmi-xeber/prezident-ilham-eliyev-turk-dunyasi-bizim-ailemizdir-833796 - Prezident İlham Əliyev: Türk dünyası bizim ailəmizdir / "APA" informasiya agentliyi, 05.04.2024.